# ƏDƏBİ YAŞANTILAR VƏ YA GÜNDƏLİKDƏN SƏTİRLƏR

*(Əvvəli ötən saylarımızda)*

İndinin özündə də fəxr edirəm ki, mənim ilk şeirim bir zamanlar məhz Osman Sarıvəllinin redaktorluq etdiyi "Ədəbiyyat" qəzetində çap olunub. Sonra tale elə gətirdi ki, "İlk addımlar" adlı ilk kitabım da Osman müəllimin redaktorluğu ilə işıq üzü gördü. Bu günkü işimiz də elədir ki, Yazıçılar İttifaqında da eyni otaqda otururuq. Yeri gəlmişkən, onu da etiraf etməliyəm ki, vaxtilə mənim üçün elçiliyə də Osman müəllim gedib. Adil müəllimin bu səmimi danışığı zalda əyləşənlərin gülüşünə səbəb oldu.

Bundan sonra yüz minlərlə oxucunun dərin maraqla, hörmət və məhəbbətlə mütaliə etdiyi məşhur "Vicdan susanda" romanının müəllifi, sevilən yazıçı Vidadi Babanlı danışdı. O, Osman müəllimlə bağlı xatirələrindən söhbət açdı, onunla birgə Ermənistan qayalıqlarına səfərindən, orda dağda gecələdiklərindən danışdı. Yazıçı qeyd etdi ki, şairin məhəbbət mövzusunda olan şeirlərinin yaranmasına çox güman ki, ömür-gün yoldaşı Sayalı xanım səbəb olmuşdur. Təsadüfi deyil ki, bu il Osman müəllim "Xalqlar dostluğu" ordeni ilə təltif olunub. Bu faktın özü şairin xalqlar arasında dostluq, qardaşlıq, beynəlmiləlçilik ideyalarının carçısı olmaq kimi şərəfli vəzifəni yerinə yetirdiyinə parlaq sübutdur. Osman müəllimin bir xoşbəxtliyi də bundadır ki, bir neçə nəsil onun əsərləri ilə tərbiyə olunub. Mən arzu edirəm ki, sevimli şairimizin yüz illik yubileyini də günlərin birində yığılıb beləcə onun öz iştirakı ilə bayram edək.

V.Babanlı sözünün sonunda şairə xoşbəxtlik və can saqlığı arzuladı.

Tanınmış şair Rasim Kərimli çıxış edərək Osman Sarıvəllini hər zaman xalqın arasında olan bir sənətkar kimi səciyyələndirdi və çıxışının sonunda şairin "Bənövşə" və özünün "Osman qağa" adlı şeirlərini oxudu.

Ədəbi birliyimizin fəal üzvü olan istedadlı gənc şair Baqif Bəhmənliyə söz verildi. O, çıxışında belə gözəl bir ifadə işlətdi ki, Osman müəllim təkcə bu gün bu məclisdə iştirak edənlərin yox, on minlərlə azərbaycanlı gəncin qağasıdır.

Məclisin səbəbkarı olan şair Osman Sarıvəlli çıxış etdi. O, qeyd etdi ki, mən bu gün çox danışmaq istəmirəm, çünki öz ürək sözlərimi bu vaxtadək çapdan çıxmış otuza yaxın irili-xırdalı kitabımda demişəm. Mən xəstələndiyim üçün özümü bir qədər nasaz hiss edirəm, sizin görüşünüzə də yataqdan qalxıb gəlmişəm. Burda çıxış edib şeirimi oxuyan, mənim haqqımda xoş söz deyən yoldaşlara, öz qiymətli vaxtından kəsib bu tədbirə gələnlərin hamısına ən səmimi minnətdarlığımı bildirirəm.

Görüşün sonunda yazıçı Oqtay Salamzadə danışdı. Onun hər bir cümləsi alqışlarla qarşılandı:

-Mən arzu edirəm ki, Osman müəllim Adil Babayevin nəvəsinin də elçiliyini eləsin.

-Mən arzu edirəm ki, Osman müəllim Vidadi Babanlı ilə yüzüncü dəfə Ermənistan qayalarına çıxsın.

-Mən arzu edirəm ki, otuz ildən sonra hamılıqla bu zala toplaşıb Osman müəllimin yüz illik yubileyini qeyd edək.

Hamı ayağa qalxdı, alqışlar uzun müddət kəsilmək bilmədi.

Tədbirin sonunda ədəbi birliyimizin üzvləri bu günkü məclisdə iştirak etmiş tanınmış qələm sahibləri ilə birlikdə şəkil çəkdirdilər.

**29 dekabr.** Keçən həftə Radio və Televiziya Verilişləri Komitəsinə getmişdim. Giriş otağında növbə çəkən milis işçiləri dedi ki, sənə kim lazımdırsa burdan zəng elə, həmin şəxslər lazım bilsə, studiyanın ərazisinə daxil olmağın üçün buraxılış vərəqi göndərərlər. Mən əvvəlcə Radio studiyasında ədəbiyyat və incəsənət şöbəsinin müdiri Mailə xanım Muradxanovaya zəng vurdum. Ordan kişi səsi cavab verdi və mənə "Gənclik" redaksiyasının əməkdaşı , şair Oqtay Şamilə zəng vurmağı məsləhət bildi, Mən həmin adamın dediyi nömrə ilə Oqtay Şamilə zəng vurub onunla danışdım və efirdə səslənmək üçün bədii yazı gətirdiyimi bildirdim. Oqtay müəllim dedi ki, yazılarını milis işçilərinə ver, get, bir neçə gündən sonra gəlib nəticəsini öyrənərsən. Bir neçə gündən sonra yenə studiyaya gedib həmin nömrə ilə O.Şamilə zəng vurdum. Telefona başqa adam cavab verib dedi ki, Oqtay yoxdur, çox gümn ki, harasa veriliş hazırlamağa gedib. Evə əliboş qayıtmaq istəmirdim, odur ki, divara vurulmuş nömrələrdən istifadə edərək televiziya studiyasının ədəbiyyat redaksiyasına zəng vurdum. Telefona kişi səsi cavab verdi və milislərə tapşırdı ki, məni içəri buraxsınlar. Mən əvvəl studiyanın həyətinə, sonra da televiziyanın binasına daxil olub bayaq adı çəkilmiş şair Xeyrulla Camalın iş otağını tapdım və onunla görüşüb tanış oldum. Onun səmimiliyi və qayğıkeşliyi xoşuma gəldi. Xeyrulla müəllim dedi ki, bizdə əlyazma halında yazı qəbul olunmur, odur ki, yazılarını makinada çap etdirib gətirərsən. Əgər istedadın olsa, sənə bacardığım qədər kömək edəcəyəm. Mən Xeyrulla müəllimə təşəkkür edib çıxdım və yolüstü yazılarımı makinada çap etdirmək üçün notariusa verdim.

**1 YANVAR 1976.** Qayğılarla, problemlərlə dolu olan bir il də beləcə başa çatdı və hamılıqla yeni-1976-cı ilə qədəm qoyduq. İndi bu illərin ayrıcında oturub özüm-özümə sual verirəm ki, ötən bu ildə hansısa bir yeniliyə, qələbəyə imza ata bilmişəmmi? Ancaq özüm də bilmirəm ki, bu suala nə cür cavab verim. Keçən bu ildə mən çox tələsdim və məhz tələsdiyimə görə də bütün işlərim yarımçıq qaldı. İki ildən artıqdır ki, bir az yekə də çıxsa, "Nəhayətsiz addımlar" adlı roman üzərində çalışıram. Artıq bu başlıq altında neçə-neçə qalın dəftər doldurmuşam, amma hiss edirəm ki, roman yazmaq üçün mənim həm yaradıcılıq təcrübəm, həm də bədii təfəkkürüm çatışmır. Bu yazıdan roman alınmasa belə, onun cızmaqaraları gələcəkdə hansısa yeni bir yazını işləyərkən vasitəçi rol oynaya bilər, çünki, birbaşa iri həcmli epik əsər yazmaq və onu mükəmməl səviyyədə ortaya qoymaq bir az çətin məsələdir. Ötən ilin ortalarında "Südabə" adlı povest yazmağa başlamışam, lakin hələ onu da bitirməmişəm, halbuki, yazmağa başlayanda işin bu qədər uzana biləcəyini təsəvvürümə gətirmirdim. Ötən ildə yeni poema yazmağı qərara almışdım, lakin hələ də onu başlamamışam. İl ərzində həm də iyirmiyə yaxın şeir, üç-dörd hekayə yazmışam. Şeirlərimdə isə, özüm də hiss edirəm ki, nə isə çatışmır. Bundan sonra şeir yazanda obrazlı ifadələrə, poetik fikir qarşılaşdırmalarına ciddi şəkildə fikir verməyə çalışacağam. Acınacaqlı haldır ki, dəfələrlə cəhd göstərsəm də, hələ heç bir əsərim mətbuatda çap olunmayıb. Ötən il həm Quba rayonunda çıxan "Şəfəq" qəzetində, həm də paytaxtımızda nəşr olunan "Bakı" qəzetində mənim şeirlərim haqda tənqidi rəylər yazıblar, yazılarımın həm xoşagələn, həm də çatışmayan cəhətlərini göstəriblər. Bu tənqidi rəylər mənə öz sənətimin aynasında olan işıqlı məqamları və ləkələri görməyə imkan verir.



Bundan əlavə, ötən il mənim bir sıra cəhdlərim də müvəffəqiyyətsizliyə uğradı. İki dəfə ali məktəbə qəbul imtahanı verdim, lakin hər iki dəfədə də müsabiqədən keçə bilmədim. Bundan sonra uzun müddət ruh düşkünlüyünə qapıldım, həftələrlə üzüm gülmədi. Bir müddət qələmim daha da tənbəlləşdi, papiros , yəni, siqaret çəkməyə başladım.

1975-ci il mənim üçün uğurlu olmadı. Bunu mənim başımda yeni ağarmış tüklər də sübut edir. Lakin indi həyatı əvvəlkinə nisbətən daha yaxşı dərk edirəm. Dərk edirəm ki, həyatda yalnız mübariz insanlar öz qarşılarına qoyduqları məqsədə nail ola bilərlər.

Bu gün şair dostum Məzahir Əsgər yanıma gəldi. Məclis düzəltdik, yeni şeirlərimizi oxuduq. Poetik ovqatda kökləndiyimiz üçün günümüz yaxşı keçdi.

**25 YANVAR 1976.** Son dərəcə adi tərzdə keçən günlər həvəssiz şəkildə bir-birini əvəz etməkdədir. Mütaliə ilə məşğul oluram, radio və televiziya ilə gedən ədəbi verilişləri izləyirəm. Ləng də olsa, bədii yaradıcılığı davam etdirirəm.

Bu gün bazardır. Başqa istirahət günlərində olduğu kimi, bu gün də Mərkəzi şəhər kitabxanasında fəaliyyət göstərən ədəbi birliyin növbəti məşğələsinə getdim. Dərnəyə gələn istedadlı gənclərə hörmət və məhəbbətim hədsiz - hüdudsuzdur. Mənalı danışıqlarından, gətirdikləri zəngin sitatlardan onların təmiz qəlbə, hərtərəfli intellektual biliyə malik olduqları aydın görünür. Bu gənclərdən Kamil Sərbəndi, Bəhram Basqallı, Saleh Salahzadə, Firidun Qurbanov, Telman Əliyev, Səyavuş İsmayılov, Həsən Əliyev, Eldəniz İbrahimov, Zəlimxan Yaqub, Eldar İbrahim, Məzahir Əsgər, Gülüş və Teyyubə hamının dərin hörmət və məhəbbətini qazanmışdır. Onlarla ünsiyyətdə olanda sevinirsən, sevinirsən ki, belə coşqun arzularla yaşayan təmiz ürəkli yaradıcı gənclərimiz var, sevinirsən ki, bu gənclər gələəəcəkdə ədəbiyyatımızın və ümumən mədəniyyətimizin taleyini həll edəcəklər.

Dərnəyin bu günkü məşğələsi coşqun yaradıcılıq fəallığı şəraitində keçdi və oxunan hər bir yazı məharətlə obyektiv tənqid süzgəcindən keçirildi. Növbəti məşğələmiz başa çatdıqdan sonra dərnəyimizin fəal üzvü Həsən Əliyevi rayona yola salmaq üçün hamılıqla gəzə-gəzə Sabunçu vağzalına gəldik. O, təhsil aldığı universitetdə imtahan sessiyasını başa vurmuşdu və indi də qatarla doğulduğu Naxçıvan bölgəsinə - qış tətilinə gedirdi.

**1 FEVRAL.** Yaşadığımız dünya kimi insan həyatı da möcüzələrlə, sirli hadisələrlə zəngindir. Mən nə qədər fikirləşirəmsə yuxunu və yuxugörmənin səbəblərini tam mənası ilə anlayıb dərk edə bilmirəm. Ötən gecə alovlu nitqləri ilə ad çıxarmış istedadlı şair Zəlimxan Yaqub yuxuma girmişdi. Yuxuda görürəm ki, güya Zəlimxan mənim təzəcə çapdan çıxmış kitabımı gətirib özümə göstərir. Kitabı açıb vərəqləyirəm və görürəm ki, yarısı şeirlərdən, yarısı da hekayələrdən ibarətdir. Sevincimi ifadə etməyə söz tapa bilmirəm və xoş bir əhvali-ruhiyyə içində yuxudan oyanıram.

Bazar günü olduğu üçün ədəbi dərnəyimizin növbəti məşğələsinə getdim. Dərnəyin rəhbəri, görkəmli şair Söhrab Tahir dedi ki, Yazıçılar İttifaqı rəhbərliyinin yekdil qərarı ilə dərnəyimizin ən fəal üzvü Zəlimxan Yaqubun ilk şeirlər kitabını çap etmək nəzərdə tutulmuşdur. Zəlimxan özü də bu haqda danışdı və sevincini bizimlə bölüşdükdən sonra yeni şeirlərindən bir neçəsini söylədi. Gecə gördüyüm yuxu ilə bu günkü hadisə arasındakı qəribə uyğunluq məni heyrətə salmışdı.

Dərnəyin bu günkü məşğələsindən çıxdıqdan sonra Məzahirlə birlikdə yeni sirk tamaşasına baxmağa getdik. Bu günkü proqram indiyə kimi gördüyümüz bütün tamaşalardan daha maraqlı idi. "Görünməz adam" adlı bu günkü sirk tamaşasında musiqi sədaları altında , tamaşaçıların gözü qarşısında yoxa çıxan, bədəni hissələrə bölünən adamı gördükdə heyrətlənməmək mümkün deyildi.

*(Davamı var)*



***Bayram AFURCALI***